***Bu gün müstəqil Azərbaycan Respublikası demokratiya yolu ilə inamlı inkişafını davam etdirir. Bu, ümummilli lider Heydər Əliyevin binasını qoyduğu dəyişməz dəyərlər sistemidir ki, ölkəmizin hazırkı rəhbərliyi bu istiqamətdə uğurlu addımlar atır. Təbii ki, demokratik dəyərlər artıq ölkə həyatının bütün sahələrini əhatə edir. Dövlət idarəçiliyi, hüquq-mühafizə, sosial, mədəniyyət və sair sahələrdə demokratik dəyərlər inkişaf etməkdə, insanlarımızın rifahı və güzəranının yaxşılaşmasına xidmət göstərməkdədir. Demokratiyanın vacib elementlərindən biri də Azərbaycanda gender bərabərliyinin, qadın və kişi hüquqlarının eyni səviyyədə təmin edilməsidir. Ölkə rəhbərliyi, xüsusən Prezident İlham Əliyev bu məsələyə daim diqqət yetirir. Bu da, şübhəsiz ki, ulu öndər Heydər Əliyevin ölkə həyatının ən müxtəlif sahələrində tətbiq etdiyi prinsipial dəyərlərin ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsi deməkdir.***

# Abşeron: zəhmət və uğur dolu bir il

Hazırda dövlət idarəçiliyi sisteminin elə bir sahəsini təsəvvür etmək mümkün deyil ki, orada Azərbaycan qadını çalışmasın. Bu gün qadınlarımız icra strukturlarında, parlamentdə, eləcə də özəl sektorda müvəffəqiyyətlə fəaliyyət göstərir. Son illərdə Azərbaycanda gedən sosial-iqtisadi inkişafın izlərini ölkənin bütün rayon və şəhərlərində olduğu kimi, Bakının cəmi beş-on kilometrliyində yerləşən Abşeron rayonunda da müşahidə etmək mümkündür. Rayon sakinlərin gözləri qarşısında, demək olar ki, hər gün dəyişib, yeniləşib, böyüyüb. Bu gün rayonun simasını dəyişən çoxmərtəbəli, bir-birindən gözəl yaşayış və inzibati binaları, təbii ki, Abşeronun tərəqqisini şərtləndirən mühüm əlamətlərdir. Ancaq təkcə bunlarmı?! Rayonda sənaye və kənd təsərrüfatının, təhsilin və mədəniyyətin inkişafı üçün də münbit şərait yaradılıb. Sözsüz ki, insana qayğı və diqqət isə burada bütün məsələlərin önündə dayanır.





İradə Gülməmmədova uzun müddətdir ki, Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini, birinci müavini və artıq bir ildir ki, RİH başçısı kimi rayonun sosial-iqtisadi və mədəni inkişafına rəhbərlik edir. Özü də elə bir vaxtda ki, dünyada təhlükələr və kataklizmlər get-gedə artır, münaqişəli regionların sayı çoxalır, iqtisadi böhran daha da dərinləşir və bütün ölkələr bu böhrandan müxtəlif formada əziyyət çəkir. Dünyanı bürümüş iqdisadi-maliyyə böhranı son vaxtlar Azərbaycandan da yan keçməyib. Neftin qiymətinin kəskin şəkildə ucuzlaşması ölkəmizin maliyyə gəlirlərinin azalmasına səbəb olub. Bununla belə, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət strukturlarında çalışanların hamısı bir nəfər kimi, uğurlu inkişafın təmin edilməsinə, ictimai-siyasi sabitliyin qorunub saxlanılmasına, yeni sosial-iqtisadi islahatların həyata keçirilməsinə, yeni istehsal sahələrinin işə salınmasına, insanların işlə təmin edilməsinə səy göstərir.

Abşeron rayonu da bu sırada ön cərgələrdə gedir. Qeyd edək ki, rayonda sənaye və kənd təsərrüfatı yönümlü məhsulların istehsalının artırılmasına xüsusi qayğı göstərilir. Bunun nəticəsidir ki, ilin əvvəlindən bəri rayonda sənaye məhsulunun həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,6 faiz artaraq 60,8 milyon manata çatıb. Kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində də artım qeydə alınıb.

Son bir ilin statistikasına nəzərə salsaq görərik ki, rayonda abadlıq-quruculuq işləri uğurla davam etdirilib, əhalinin elektrik enerjisi, içməli su, kanalizasiya, təbii qazla təchizatı, yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində xeyli işlər görülüb. Rayonun daxili imkanları hesabına Xırdalan şəhərində Hacı Zeynalabdın Tağıyev, Məhəmməd Füzuli, Səttar Bəhlulzadə, Yusif Məmmədəliyev küçələrində abadlaşdırılma işləri həyata keçirilib, Misir dostluq parkı yenidən qurulub. Saray qəsəbəsində Şəhidlərin xatirəsinə abidə ucaldılıb, şəhidlərin adına olan park, eyni zamanda, Vəli Axundov parkı abadlaşdırılıb. Aşağı Güzdək qəsəbəsində Həzi Cavadov, Novxanı kəndində Mehdi Hüseynzadə küçələrində daxili imkanlar hesabına abadlıq işləri görülüb. Masazır kəndinin mərkəzi küçəsi olan Əlağa Vahid prospektinin işıqlandırılması məqsədilə 85 işıq dirəyi basdırılaraq 5 kilometr uzunluğunda kabel xətti çəkilib. Eyni zamanda, "Yeni Bakı" yaşayış massivinə gedən yola 15 min kvadratmetr yola asfalt örtük döşənib. Ceyranbatan və Mehdiabad qəsəbələrində parkların, Masazır kəndində Heydər Əliyev və Zərifə Əliyeva adına küçələrin yenidən qurulması işləri görülüb. Xırdalan şəhərində 17 çoxmənzilli yaşayış binası təmir edilib. İcra başçısı ilə söhbətlər zamanı da dəfələrlə müşahidə etmişəm ki, o, bütün bu işlərə gündəlik tələbat kimi baxır. Onun fikrincə, indi - XXI əsrin birinci yarısında yaşadığın ərazinin abadlığı, səliqə-sahmanı, təmizliyi birinci növbədə qorunmalıdır.

Bu qəbildən olan işlər davam etdirilir. Ötən dövrdə Abşeron rayonu üzrə qeyri-məşğul əhalinin ödənişli ictimai faydalı əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı rayon Məşğulluq Mərkəzi, rayon təmir abadlıq idarəsi və digər əlaqədar idarələrlə birgə təkliflər hazırlanıb, küçə, prospekt, park, xiyaban və magistral yolların ətrafında görüləcək abadlıq və quruculuq işləri, Xırdalan şəhərində təmir olunacaq beş çoxmənzilli yaşayış binası müəyyən edilib. Abadlıq-quruculuq işləri və mənzil təmiri ilə əlaqədar 311 nəfər rayon sakini artıq işlə təmin olunub. Ümumilikdə, 2016-cı ilin əvvəlindən bəri dövlət qurumları və özəl müəssisələrdə 781 rayon sakini işlə təmin edilib.

Rayon rəhbərliyinin gündəlik qayğı göstərdiyi məsələlərdən biri də məhz budur – insanların işlə təminatı. Ümumiyyətlə, insana qayğı, onun mənzil-məişət və digər sosial problemlərinin həlli Abşeronda daim diqqət yetirilən məsələlərdəndir. Bunların həlli üçün daim yollar aranır. Sahibkarlığın inkişafı bu sahədə ön sırada dayanır. Məsələn, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayonun inzibati və təhkim olunmuş ərazilərində fəaliyyət göstərən sahibkarlara 26 investisiya layihəsi üçün 8 milyon 540 min manat güzəştli kredit verilib. Bunlardan 4-ü sənaye, 22-si kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisəsidir. Bu müəssisələrdə 196 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Günümüzün vacib məsələlərindən biri də əhalinin qayğı və problemlərinin həllinə diqqət göstərilməsidir. Bu, cənab Prezidentin bütün dövlət məmurları qarşısında qoyduğu əsas tələbdir. Rayonda bu məsələ də daim uğurla həll olunur. Rayon icra hakimiyyətinin başçısı idarə, təşkilat, müəssisə və hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birlikdə mütəmadi olaraq kənd və qəsəbələrdə yaşayan sakinlərlə səyyar-qəbullar keçirir, yerlərdə olaraq əhalinin qarşılaşdığı problemlərlə maraqlanır və bir çox məsələlərin həlli istiqamətində konkret işlərin görülməsi barədə tapşırıqlarını verir. Kənd və qəsəbələrdə sakinlərin əsasən su, işıq və kanalizasiya ilə bağlı problemlərinin olduğunu bildiyindən rayonda bu məsələlər xüsusilə nəzarətdə saxlanılır.





Bu gün rəsmi statistikaya nəzər salanda açıq-aşkar görünür ki, Abşeron rayonunun kənd və qəsəbələrində yerli sakinlərlə keçirilən görüşlər yalnız rəsmiyyət xatirinə keçirilmir, hər kəsin öz fikirlərini aydın şəkildə ifadə etməsi üçün yaradılmış demokratik şərait bu səyyar qəbulların əsl mahiyyətini ehtiva edir. Bir neçə dəfə bu görüşlərin- səyyar qəbulların iştirakçısı olmuşam. Müxtəlif problemi olan vətəndaşların sonda razı şəkildə akt zalından evlərinə getmələrini izləmək adamda rahatlıq və məmnunluq hissləri yaradır. Əlbəttə, məhz bu cür- dialoq şəklində keçən görüşləri formalaşdıran əsas amil səmimiyyətdir.Görüşün əvvəlində mütləq xüsusi vurğulanır: ölkə başçısının tapşırığıdır ki, vəzifəli şəxslər, rəhbər işçilər təkcə öz kabinetlərində deyil, eyni zamanda yerlərdə vətəndaşlarla görüşsünlər, onları dinləsinlər, problemlərinin həllində yardımçı olsunlar. Nəticə isə, sözsüz ki, müsbət olur, adamlar, necə deyərlər, öz dərd-sərlərini, qayğılarını sərbəst ifadə edirlər və kömək göstərilir. Tam qətiyyətlə deyə bilərəm ki, bu gün Abşeron rayonunda elə bir kəs tapılmaz ki,bu səyyar-qəbullardan narazı qalsın.Xüsusilə də bu görüşlərin nəticəsi olaraq bir çox məsələlər öz həllini tapdığına görə.

Məlumdur ki, Abşeron bir rayon kimi, XX əsrin ikinci yarısında təşkil olunub. Bu rayonun yaradılmasının əsas məqsədi də Bakı və ətraf yaşayış massivlərini keyfiyyətli kənd təsərrüfatı və ərzaq məhsulları ilə təmin etməkdən ibarət olub. Ədalət naminə qeyd edim ki, rayon uzun illər bu missiyanın öhdəsindən məharətlə gəlib. Bir çox əmək nailiyyətlərinə imza atılıb, rayonun şan-şöhrəti eldən elə, dildən-dilə yayılıb. Onlarcla əmək qəhrəmanı Abşeronun adını ucaldıb. Bütün bu uğurlar, heç şübhəsiz ki, ulu öndər Heydər Əliyevin sonsuz qayğısı və birbaşa dəstəyi hesabına başa gəlib. Ancaq çox təəssüflər olsun ki, ötən əsrin 80-ci illərinin axırlarından etibarən bu dəstəyin olmaması ucbatından Abşeron sürətlə tənəzzül etməyə başladı, kənd təsərrüfatı darmadağın edildi və qazanılan uğurlar isə yalnız kimlərinsə yaddaşında qaldı. Xalqın xilaskar oğlu Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün ölkə kimi, Abşeronun da taleyinə yeni “qızıl səhifələr” yazıldı. Rayonun “ikinci baharı” əvvəldə də qeyd olunduğu kimi 2005-ci ilin avqustundan sonra başlandı. Sözsüz ki, 2005-ci ildən sonra rayonda həyata keçirilmiş işlər barədə diqqətli oxucu kifayət qədər məlumatlıdır. Sevindirici hal ondan ibarətdtr ki, bu tendensiya indi də, həm də mükəmməl şəkildə davam etdirilir. Bu, eyni zamanda, o ümidi də gücləndirir ki, dövlət proqramında nəzərdə tutulmuş bütün məsələlər, o cümlədən üzümçülük, maldarlıq, zəfəran istehsalı və s.yenidən güclənərək əvvəlki tarixi şöhrətini qaytaracaq və yeni nailiyyətlərə imza atılacaq. Çünki bu gün bütün bunları həyata keçirmək üçün rayonun hər cür potensialı mövcuddur. Abşeronun sürətlə sənayeləşməsi fonunda kənd təsərrüfatının da inkişafı zamanın tələbidir və bunsuz rayonun hərtərəfli tərəqqisindən danışmaq mümkün deyil.

Bir sözlə, Abşeron rayonu 2005-2015-ci illərdə qazandığı uğurları artırmaqda davam edir. Bunu keçən il sentyabrın 2-dən bəri rayonda aparılmış sosial-iqtisadi siyasət də təsdiqləyir. Məsələni daha maraqlı və əhəmiyyətli edən cəhət isə budur ki, bütün bu işlərin, bu uğurların mərkəzində Azərbaycan qadını dayanır - cənab Prezident İlham Əliyevin etimad göstərərək Abşeron RİH başçısı vəzifəsinə təyin etdiyi İradə Gülməmmədova.





Şübhəsiz ki, Azərbaycan qadınının nəyə qadir olduğu haqqında uzun-uzadı danışmağa ehtiyac yoxdur. Bu həqiqət tarixin sınaqlarından dəfələrlə çıxıb. Ayrı-ayrı tarixi dövrlərdə yaşamış qadınlarımız dönə-dönə sübut ediblər ki, onlar özlərinin istedadı, qabiliyyəti, biliyi və həyat təcrübəsi ilə istənilən sahədə öz ərləri, qardaşları ilə çiyin-çiyinə çalışmağa qadirdirlər. Əlbəttə, Tomrisdən, Nüşabədən, Nigar xanımdan, Həcərdən üzü bəri kişilərlə çiyin-çiyinə vuruşmuş minlərlə qəhrəman qadınımıızı nümunə göstərmək olar. Başqa sahələrdə - ədəbiyyat, mədəniyyət, incəsənət və sair sahələrdə də belədir. Bir məsəldə deyildiyi kimi, tarix təkrar olunur, yəni bu gün də belədir. Bu gün də həyatımızın, iqtisadiyyatımızın, siyasətimizin, mədəniyyətimizin bütün sahələrində çalışan qadınlarımızın arasından istedadlıları seçilib irəli çəkilir, böyük kollektivlərə rəhbər təyin edilir, böyük məsuliyyət, cavabdehlik, zəhmət, bəzən də hünər tələb edən sahələrdə çalışırlar. Və hər zaman rəhbərlik etdikləri kollektivlərə şöhrət, uğur, inkişaf bəxş edirlər.

Burada Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın adını xüsusilə vurğulamaq lazımdır. Onun istər ölkə daxilində, istərsə də xaricdə göstərdiyi çoxşaxəli fəaliyyət, xüsusilə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, milli mədəniyyətimizin təbliği, eləcə də bir çox ölkələrdə dünya əhəmiyyətli mədəniyyət abidələrinin bərpasına göstərdiyi kömək hər kəsə məlumdur.

Ümid edirik ki, Abşeron rayonu qarşıdakı illərdə daha böyük nailiyyətlərə imza atacaq.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***